## QƏBƏLƏ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ 2017-ci İLİN AVQUST AYINDA YERLƏRDƏ KEÇİRƏCƏYİ GÖRÜŞ-QƏBULLARIN QRAFİKİ

| Tədbirin keçiriləcəyi yaşayış məntəqəsinin adı (şəhər qəsəbə, kənd) | Tarix | Görüşün keçiriləcəyi yer və vaxtı |
|---|---|---|
| Nohurqışlaq kəndi | 01.08.2017 | Kənd məktəbi, saat $11^{00}$ |
| Çuxur Qəbələ kəndi | 08.08.2017 | Kənd məktəbi, saat $11^{00}$ |
| Yemişanlı kəndi | 15.08.2017 | Kənd məktəbi, saat $11^{00}$ |
| Kötüklü kəndi | 22.08.2017 | Kənd məktəbi, saat $11^{00}$ |
| Seyidqışlaq kəndi | 29.08.2017 | Kənd məktəbi, saat $11^{00}$ |

**Qəbula dəvət olunurlar:** təhsil, səhiyyə müəssisələrinin, hüquq mühafizə orqanlarının, məşğulluq, gigiyena və epidemiologiya mərkəzlərinin, dövlət sosial müdafiə fondunun, poçtamtın, telekommunikasiya qovşağının, elektrik şəbəkəsinin, yol-istismar, baytarlıq, qaz-istismar, suvarma sistemləri, meşələrin bərpası və mühafizəsi idarələrinin rəhbərləri.

# Qaliblər sırasına çıxmışlar

İyulun 15-də Xaçmazda təşkil olunmuş II Beynəlxalq dolma festivalına 12 xarici ölkədən və Azərbaycanın 50-yə yaxın rayonundan 500-dən çox iştirakçı qatılıb.

Festivalda Azərbaycanda, eləcə də İndoneziya, Özbəkistan, Çin, Cənubi Koreya, Türkiyə, Ukrayna, Meksika və s. ölkələrdə müxtəlif çeşiddə hazırlanan 350 növ dolma sərgilənib.

Beynəlxalq tədbirdə uğurla iştirak edən Qəbələ kulinarları birinci yerə çıxmış, festivalın diplomu və qızıl medalı ilə təltif edilmişlər.

✍ **Səhrab UMUYEV, "Qəbələ"**

# Qəbələyə 200 minə yaxın turistin gələcəyi gözlənilir

***Son illər Qəbələ rayonunda turizmin inkişafı üçün görülən işlər, inşa edilən yeni otel, istirahət və əyləncə mərkəzləri, yaradılan müasir infrastruktur, keçirilən beynəlxalq mədəniyyət və idman tədbirləri rayona gələn turistlərin sayının ildən-ilə artmasına səbəb olur. Rayonun əsrarəngiz təbiəti və göstərilən yüksək xidmət də turistləri cəlb edən vacib amillərdir.***

Qəbələ rayonu gözəl təbiətinə, sıx meşələrinə, soyuq bulaqlarına, mənzərəli guşələrinə, çay və göllərinə, paytaxta yaxın olmasına və burada yaradılan müasir turizm infrastrukturuna görə turistlər üçün daha cəlbedicidir. Bu il yanvarın 1-dən iyulun 1-dək bölgəyə 95 min 480 nəfər turist gəlib. Onlardan 52 min 132 nəfəri əcnəbi turistlər olub. Xarici turistlər, əsasən, müsəlman ölkələrinin vətəndaşlarıdır.

Turistlərin istirahətinin təşkili üçün rayonda bütün şərait yaradılıb. Hazırda demək olar ki, bütün otellər, istirahət və əyləncə mərkəzləri turistlərlə doludur. Gələn turistlərin əksəriyyəti Rusiya, Türkiyə, Ukrayna, Latviya, İran, Birləşmiş Ərəb Əmirlikləri, Gürcüstan, Səudiyyə Ərəbistanı, Pakistan, Misir, İraq, Qətər vətəndaşlarıdır. Qonaqlar Qəbələnin müasir otelləri ilə yanaşı, həm də çay və meşə kənarında sərfəli qiymətə kirayə verilən kənd evlərində, kotteclərdə də dincəlirlər. Müxtəlif turizm şirkətləri Bakıdan Qəbələyə endirimli qiymətlərlə tur-aksiyalar təşkil edir, turistləri rahat nəqliyyat vasitələri ilə sifariş etdikləri otellərə yerləşdirir, onların tarix-mədəniyyət abidələrinə, müasir istirahət və əyləncə mərkəzlərinə, mənzərəli yerlərə səfərlərini təşkil edir.



Bu gün rayonda irili-xırdalı 100-ə yaxın turizm-istirahət obyekti fəaliyyət göstərir. Həmin obyektlərin 20-si beş, dörd, üçulduzlu otel və müasir istirahət mərkəzləridir. Bu turizm obyektlərində gün ərzində 2500 qonağı qarşılamaq, onlara yüksək səviyyədə xidmət göstərmək mümkündür.

Bu il rayona 200 minə yaxın turistin gələcəyi gözlənilir.

✍ **Anar RÜSTƏMLİ.**

# Qanvermə aksiyası keçirilmişdir

***Ölkə rəhbərliyi tərəfindən talassemiyalı və hemofiliyalı xəstələrə daim xüsusi dövlət qayğısı göstərilir.***



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təsdiq etdiyi "Hemofiliya və talassemiyadan əziyyət çəkən uşaqlara qayğı" Dövlət Proqramına uyğun olaraq iyulun 14-də Qəbələ Müalicə Diaqnostika Mərkəzində qanvermə aksiyası keçirilmişdir.

Saat 10-da başlayan aksiyada rayonda fəaliyyət göstərən bütün idarə, müəssisə və təşkilatların işçiləri, gənclər, o cümlədən ictimaiyyətin nümayəndələri yüksək həvəslə və könüllü olaraq iştirak etmiş, qana ehtiyacı olan insanların köməyinə çatmaq üçün bu nəcib və humanist xarakterli aksiyaya qoşulmuşdur.

Qanvermə prosesi zamanı Bahadur Eyvazov adına Elmi-Tədqiqat Hemotologiya və Transfiziologiya İnstitutunun Mərkəzi Qan Bankı tərəfindən ezam olunmuş xüsusi tibb briqadasının həkim-hemotoloqları hər bir donordan qan analizi götürərək sağlam olub-olmamalarını müəyyənləşdirmişlər.

Müayinə olunan 347 könüllüdən 225 nəfəri qan vermişdir. Yığılmış qan ehtiyatı talassemiya, hemofiliya və digər qan xəstəliklərindən əziyyət çəkən insanların müalicəsində istifadə olunacaqdır.

Aksiyada iştirak edənlər qan xəstəliklərindən əziyyət çəkən uşaqlar üçün könüllü qan verməyin xeyirxah və savab iş olduğunu bildirmiş, belə aksiyalarda yaxından iştirak etməyi vətəndaşlıq borcu kimi qiymətləndirmişlər.

***Əziz oxucular!***
***Gəlin, belə insanların taleyinə biganə qalmayaq və hər birimiz imkanımız yetdiyi qədər onlara öz yardım əlimizi uzadaq.***

✍ **Rais RƏŞİDOV. "Qəbələ"**

**Foto İlkin Vəlizadənindir.**

# Milli Mətbuat Günü qeyd edilmişdir

"Qəbələ" qəzetinin əməkdaşları Milli Mətbuat Gününü qeyd etmişlər. Tədbiri giriş sözü ilə açan qəzetin redaktoru Varis Yaqubov redaksiyanın bütün əməkdaşlarını peşə bayramı münasibəti ilə təbrik etmişdir. O, qeyd etmişdir ki, 142 illik tarixi olan Azərbaycan milli mətbuatı özünəməxsus ənənələr yaratmış, mətbuatımızın banisi Həsən bəy Zərdabidən başlayaraq, günümüzə qədər böyük qələm ustaları milli təfəkkürün inkişafı üçün misilsiz xidmətlər göstərərək xalqımızın maariflənməsinə böyük töhfələr vermişdir.

Varis Yaqubov ümummilli lider Heydər Əliyevin 1998-ci ildə imzaladığı "Azərbaycan Respublikasında söz, düşüncə və informasiya azadlığının təmin edilməsi tədbirləri haqqında" Fərmanı ilə kütləvi informasiya vasitələri üzərində nəzarətin ləğv edildiyini, media işçilərinə dövlət qayğısının təməlinin qoyulduğunu bildirmişdir.

O, mətbuatımızın inkişafına, jurnalistlərin sosial müdafiəsinin gücləndirilməsinə yönəlmiş siyasətin bu gün möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən ardıcıl olaraq daha geniş miqyasda uğurla davam etdirildiyini demişdir.

Redaktor 1933-cü ildən nəşr olunan "Qəbələ" qəzetinin rayonun, eləcə də bölgənin sosial-iqtisadi və mədəni həyatının işıqlandırılmasında yaxından iştirak etdiyini, dövlətçilik ənənələrinin qorunması və təbliği istiqamətində çox böyük xidmətlər göstərdiyini vurğulamışdır.

Tədbirdə Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin 22 iyul Milli Mətbuat Günü münasibətilə "Qəbələ" qəzetinin redaksiyasına ünvanladığı təbrik teleqramı oxunmuşdur.

Yığıncaqda çıxış edən redaksiya əməkdaşları ölkəmizdə yüzlərlə qəzet və jurnalların nəşr edilməsini, çoxlu sayda televiziya kanallarının, informasiya agentliklərinin, internet saytlarının fəaliyyət göstərməsini demokratiyanın mühüm göstəricisi kimi dəyərləndirmişlər.

✍ **Sevda CABBARLI.**

# Təbrik ünvanlamışlar

Milli Mətbuat Günü ilə əlaqədar Heydər Əliyev Mərkəzində "Milli mətbuat və Heydər Əliyev" adlı tədbir keçirilmişdir. Rayon tarix-diyarşünaslıq muzeyinin əməkdaşları ilə birgə təşkil olunmuş tədbirdə mərkəzin direktoru Kəmalə Qasımova əsası böyük maarifçi Həsən bəy Zərdabi tərəfindən qoyulmuş Azərbaycan milli mətbuatı və onun keçdiyi cox şərəfli və zəngin inkişaf yolu barədə danışmışdır.

Mərkəzin əməkdaşı Mahirə Kərimova milli mətbuatımızın inkişafı ilə əlaqədar ulu öndər Heydər Əliyevin jurnalistikaya və jurnalistlərə verdiyi yüksək qiymətdən söz açmışdır.

Sonra tarix-diyarşünaslıq muzeyinin əməkdaşı Ağgül Ağamoğlanova Azərbaycan jurnalistikasının keçdiyi yol barədə tədbir iştirakçılarına ətraflı məlumat vermişdir.

Tədbirdə çıxış edənlər xalqımızın maarifpərvər mütəfəkkirləri publisistləri, jurnalistləri, yazıçıları və satirikləri tərəfindən mətbuat vasitəsilə milli şüurun, mənəviyyatın və mədəniyyətin formalaşmasına və inkişafına güclü təkan verildiyini qeyd etmişlər.

Yekunda Heydər Əliyevin çoxşaxəli fəaliyyətindən bəhs edən "Şəxsiyyət" filmi nümayiş olunmuşdur.

Mərkəzin kollektivi tərəfindən "Qəbələ" qəzetinin redaksiyasına peşə bayramları münasibətilə təbrik ünvanlanmış, şərəfli və məsuliyyətli işlərində uğurlar arzulanmışdır.

# Vergi ödəyicilərinin nəzərinə!

Gəlir və mənfəət vergisi üzrə cari ödəmələrin son müddəti 17.07.2017-ci ildir.

ƏDV, Aksiz, Yol və Mədən vergisi üzrə bəyannamələrin təqdim edilməsinin və vergilərin ödənilməsinin son müddəti 20.07.2017-ci ildir.

Sadələşdirilmiş vergi bəyannaməsinin təqdim edilməsinin və verginin ödənilməsinin son müddəti 20.07.2017-ci ildir.

Daşınmaz əmlakın təqdim edilməsi üzrə Sadələşdirilmiş vergi bəyannaməsinin təqdim edilməsinin son müddəti 20.07.2017-ci ildir.

ƏDV-nin ödəyicisi olmayan Gəlir və Mənfəət vergisinin ödəyicilərinin muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan rüblük vergi bəyannaməsinin təqdim edilməsinin və verginin ödənilməsinin son müddəti 20.07.2017-ci ildir.

Ödəmə mənbəyində tutulan vergi bəyannaməsinin təqdim edilməsinin və verginin ödənilməsinin son müddəti 20.07.2017-ci ildir.

Xüsusi notariusların gəlir vergisi bəyannaməsinin təqdim edilməsinin və verginin ödənilməsinin son müddəti 20.07.2017-ci ildir.

Dövlət rüsumunun tutulması barədə hesabatın təqdim edilməsinin son müddəti 20.07.2017-ci ildir.

**10 saylı Ərazi Vergilər İdarəsi.**